# Tələbələrin müstəqil işlərinin təşkilinin psixoloji xüsusiyyətləri

**Mətanət Həsənova**
*Azərbaycan Dillər Universitetinin*
*Psixologiya kafedrasının müəllimi*
**E-mail:** metanet2@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d. Ş.R. Babayeva,
psixol.ü.f.d., dos. U.M. Qəzvini

**Açar sözlər:** müstəqil iş, özünütənzimləmə, dinamik stereotip, idraki tapşırıq, özünənəzarət

**Ключевые слова:** самостоятельная работа, саморегулирование, динамический стереотип, познавательный задач, самоконтроль

**Key words:** independent work, self-regulation, dynamic cteretype, cognitive task, self-control

Müstəqil iş müəllimlə bilavasitə əlaqə yaratmadan tələbənin yerinə yetirdiyi və ya müəllimin rəhbərliyi altında xüsusi təlim materialları vasitəsi ilə ifadə olunan təlim fəaliyyətinin növüdür. Müstəqil iş təlim prosesinin ayrılmaz tərkib hissəsidir, həmçinin müəllimin və ya dərsliyin, təlim proqramlarının quruluşuna müvafiq olaraq tələbələrin yerinə yetirdikləri fərdi işdir.

Müasir didaktikada tələbələrin müstəqil işi bir tərəfdən müəllimin rəhbərliyi altında müdaxiləsiz həyata keçirilən təlim əməyi, digər tərəfdən isə müstəqil idraki fəaliyyətə tələbələrin cəlb edilməsi vasitəsidir. Təlim prosesində müstəqil iş fəaliyyətin təşkili və metodların formalaşdırılması kimi nəzərdən keçirilir. Tələbələrin müstəqil işlərindən yalnız o zaman effektiv nəticə almaq olar ki, o, təlim-tərbiyə prosesində və ali təhsil müəssisələrində (kolleclərdə) tələbələrin tədrisinin mərhələlərində təşkil olunsun və həyata keçirilsin.

Şəxsi-didaktik məqsədlərə görə, müstəqil işlərin dörd tipini fərqləndirirlər:

Birinci tip müstəqil tapşırıqlar. Tələbələrin bacarıqlarının formalaşdırılması o zaman mümkündür ki, verilən tapşırıqların şərti məzmunu idraki fəaliyyətdə aşkar edilsin. Çünki tələbələrin idrak fəaliyyəti müvafiq bilik sahəsinin obyektləri haqqında informasiyaların təkrar qavranılmasından ibarətdir. Müstəqil işlərin bu tipləri üçün əksər hallarda ev tapşırıqlarından istifadə olunur. Buna: dərsliklə, mühazirə konspekti ilə iş aid ola bilər. Müstəqil işin bu tipinin mühüm cəhəti ondan ibarətdir ki, axtarılan bütün məlumatlar, habelə tapşırıqların icra üsulu aşkar formada və ya bilavasitə tapşırığın özündə təzahür edir.

İkinci tip müstəqil tapşırıqlar. Biliklərin zəruri olaraq formalaşdırılması mühüm tapşırıqları həll etməyə yönəldilmiş bilikdir. Tələbələrin idrak fəaliyyəti təlim informasiyasının mənimsənilməsinin məzmun və struktur dəyişikliyinin təzahürüdür və o müxtəlif yollarla tapşırıqların icrasını müəyyən edir.

Bu tip tapşırıqların həlli üsulları məntiqi olaraq bir-birinin ardınca növbətilərin icrası ilə nəticələnir. Müstəqil işin bu tipinə laborator işlərin və praktik məşğələlərin ayrı-ayrı mərhələləri, kurs işlərinin layihələri, həmçinin idraki xarakterli ev tapşırıqları da aiddir. Bu qrup işlərin xüsusiyyətləri onunla nəticələnir ki, tələbələr tapşırıqlarla bağlı fikir və rəylərini bildirməli, həmin şəraitdə tətbiq olunan üsul və ya vasitələri inkişaf etdirməlidirlər.

Üçüncü tip müstəqil tapşırıqlar. Bu tip tapşırıqlarda tələbələrin bilikləri

formalaşdırılmalıdır. Tələbələrin idrak fəaliyyəti bu məsələlərin həlli zamanı bilik, bacarıq və vərdişlərin köçürülməsi yolu ilə həyata keçirilir. Bu tip tapşırıqların ümumi vəzifəsi təcrübə ilə bağlı qərarların axtarışını, onların formalaşdırılmasını və reallaşdırılmasını nəzərdə tutur. Tələbələrdən verilən tapşırıqda mənimsənilmiş informasiyaların tədris üsullarını dəyişməsi tələb edilir. Müstəqil işin bu tipi tələbələrə tanış olmayan situasiyanı və informasiyaları təhlil etməyə yönəltməlidir. Tələbələrin müstəqil işinin bu tipinə kurs və buraxılış işləri aid edilir.

Dördüncü tip müstəqil tapşırıqlar. Bu tip müstəqil tapşırıqlar tələbələrin yaradıcılıq fəaliyyəti üçün ilkin şərait yaradır. Bu işlərin icra edilməsi zamanı tələbələrin idrak fəaliyyəti yeni əlaqə və münasibətlərin qurulması, naməlum ideyaların tapılması üçün vacib olan yeni informasiyanın əldə edilməsi ilə nəticələnir. Müstəqil işlərin bu tipi kurs və buraxılış işləri daxil olmaqla elmi-tədqiqat xarakterli tapşırıqların icrası ilə reallaşır (5, s. 304-305).

Tələbələrin müstəqil işlərinin bilavasitə təşkili iki mərhələdə özünü göstərir:

Birinci mərhələdə müəllimdən tələbələrin idraki fəaliyyətində bilavasitə iştirak etməklə yol verilən səhvləri göstərmək tələb olunur.

İkinci mərhələ özünütəşkiletmə mərhələsidir ki, burada tələbələrin biliklərinin sərbəst formalaşması prosesində müəllimin bilavasitə iştirakı tələb olunmur. Bu mərhələdə tələbələrin müstəqil işlərinin təşkilində sərbəst məşğul olmağa şərait yaratmaq, tədris materialının həcmini və məzmun strukturunu düzgün müəyyən etmək, həmçinin tələbələrin sərbəst işinin vacib metodik təminatı xüsusilə əhəmiyyətlidir.

Bir qayda olaraq, fənn proqramına müşahidələrin aparılması, ilk mənbələrin öyrənilməsi ilə bağlı məsələlər, hər bir tələbə üçün qeyri-standart fərdi tapşırıqlar və s. aid edilir. Tələbələrin müstəqil işləri üzrə tətbiq edilən müxtəlif elmi-metodik vəsaitlər informasiya xarakteri daşıyır. Odur ki, tələbələri yaradıcılıq fəaliyyətinə yönəltmək zəruridir. Bunun üçün yeni metodik tövsiyələr hazırlanması nəzərdə tutulmalıdır.

Psixoloji özünütənzimləmə insanların idraki fəallığının reallaşdırılması şərtlərindən biri olub fəaliyyətin istənilən növünün müvəffəqiyyətli icrası üçün zəmin yaradır. Konkret şəraitdən, xüsusən də qrup fəaliyyətinin xarakterindən, insanın şəxsi keyfiyyətlərindən asılı olan özününizamlamanın qanunauyğunluqları tərbiyə və özünütərbiyə prosesində formalaşdırılır. Tələbələrin müstəqil işlərinin sistemini yaradaraq *ilk növbədə,* onlara oxumaq, *ikinci halda* isə əqli fəaliyyətin elmi təşkili texnikası öyrədilməlidir.

Təlim əməyinin gərginliyi tədris fəaliyyətinin bir növündən digərinə sürətlə keçməsindən, təlimin yüksək emosionallığından, eləcə də təlim situasiyalarından asılı olaraq təzahür edir.

Aşağı hərəki fəallıq, əqli gərginliyin yüksək dərəcəsi, həmçinin qan təzyiqinin yüksəlməsi, stress vəziyyətinə gətirən hallar psixoloji patologiyanın yaranmasına səbəb olur. Tələbələrdə əqli yüklənmələr bəzən müəllimin nəzarəti olmadan baş verir ki, bu da onlarda sinir sisteminin, yaddaşın və diqqətin pisləşməsinə, təhsilə və ictimai işə marağın azalmasına gətirib çıxara bilər.

Əqli yüklənmələrin qarşısını almaq üçün tələbələrə düzgün rejimə əməl etmələrini tövsiyə və məsləhət görürük. Müstəqil işin təşkilinə uyğun olaraq tələbələrə rus alimi N.A.Vvedensk (1852-1922) tərəfindən qeyd edilmiş əqli işin rasional təşkili qaydalarını bilmələrini də tövsiyə edirik:

1. İşə dərhal, sıçrayışla deyil, ona tədricən qoşulmaq lazımdır. Fizioloji baxımdan bu onunla izah olunur ki, hiss orqanlarına xarici mühitin eyni təsirlərinin dəfələrlə təkrarı zamanı yaranan şərti reflektor əlaqələrin nisbətən möhkəm sistemi — dinamik stereotipin əsası qoyulmuşdur.

2. Əməyin ritmini təkmilləşdirmək məqsədilə həftə, ay və il boyunca işin bərabər bölgüsü

aparılmalıdır. Ritm insanın psixoloji niyyətinin vasitəsinə xidmət edir və onun həyatında xüsusi rol oynayır.

3. Hər bir işin həllində ardıcıllığa və sistemliliyə ciddi riayət edilməlidir.
4. Əməyin və istirahətin növbələşməsi ağılla uyğunlaşdırılmalıdır.
5. Məhsuldar əqli fəaliyyət ictimai əhəmiyyətə malik olmalıdır.

Zaman keçdikcə əqli əmək bacarıqları vərdişə keçir və şəxsiyyətin təbii ehtiyacına çevrilir. Daxili intizam və mütəşəkkillik iradi təzahürlərin və sistematik özünənəzarətin, eləcə də əmək rejiminin dəqiq təşkilinin nəticəsidir.

Müstəqil iş tələbələrin fəaliyyətinə yaradıcılıq proseslərini də daxil edir. Bundan asılı olaraq tələbələrin müstəqil fəaliyyətinin üç səviyyəsini fərqləndirirlər:

- Reproduktiv (təlim) səviyyə;
- Yenidənqurma səviyyəsi;
- Yaradıcılıq (axtarıcılıq) səviyyəsi.

I. Reproduktiv (təlim) xarakterli müstəqil işlər. Bu işlər nümunə üzrə yerinə yetirilir: tapşırıqların həlli, cədvəllərin doldurulması, sxem, tələbələrin idraki fəaliyyəti, tanıma dərketmə və yaddasaxlamada təzahür edir. Bu tip müstəqil işlərin əsas məqsədi psixoloji bilikləri möhkəmləndirmək, habelə bacarıq və vərdişləri formalaşdırmaqdır.

II. Yenidənqurma (təlim) xarakterli müstəqil işlər. Bu işlərin gedişində planların tərtibinə və məsələlərin həllinə yenidən baxılması həyata keçirilir. Bu səviyyədə referat işləri də yerinə yetirilir.

III. Yaradıcılıq xarakterli müstəqil işlər. Bu işlər yeni informasiyaların alınmasını, problemli situasiyaların təhlilini tələb edir. Tələbə müstəqil şəkildə vasitələri, onların həlli üsullarını seçməlidir (elmi-tədqiqat işləri, kurs və buraxılış işləri) (5, s. 293-294).

Müstəqil iş zamanı tədrisin müxtəlif pillələrində tələbələr tərəfindən sistemli olaraq yeni biliklərin alınması, onların möhkəmləndirilməsi, təkrarlanması və yoxlanılması işi həyata keçirilir. Fikrimizcə, müəllim tərəfindən tələbələrə bilavasitə köməyin azaldılması öyrənənlərin yaradıcılıq fəallığının yüksəlməsinə kömək edəcəkdir.

Tələbələrin yaradıcılıq fəaliyyətinin effektivliyi məşğələlərin təşkilindən və müəllimin onlara psixoloji təsirinin xarakterindən çox asılıdır. Pedaqoji-psixoloji ədəbiyyatda müstəqil işin fəallaşdırılmasının müxtəlif üsulları təsvir edilir və onlar praktik olaraq tətbiq edilir:

1. Tələbələrə müstəqil iş metodlarının öyrədilməsi (müstəqil işin icra edilməsi üçün vaxt büdcəsinin planlaşdırılması, refleksiv, psixoloji biliklərin çatdırılması, həmçinin özünütəhliletmə və özünüqiymətləndirmə üçün lazım olan bacarıqların təkmilləşdirilməsi);
2. Mövcud tədris və peşəkar fəaliyyətin geniş müzakirələrində, metodik göstərişlərdə və dərsliklərdə təklif edilən təlim materialına zəruri yiyələnmənin inandırıcı nümayişi;
3. Elmdə və texnikada istifadə edilən real müzakirələrin tipik üsullarının yenidən işlənməsi, problemli materialın şərhi;
4. Təcrübə ilə nəzəriyyənin birmənalı əlaqəsinin qurulması məqsədi ilə qanun və qaydaların formulə edilməsinin əməli tətbiqi;
5. Fəal təlim metodlarından istifadə (konkret vəziyyətlərin təhlili, müzakirələr, qrup və cütlərlə iş, çətin məsələlərin kollektiv müzakirəsi, işgüzar oyunlar);
6. Tələbələrin nizam-intizamının, həmçinin onun elementlərinin məntiqi-struktur sxemi ilə tanış olmaları və videosilsilənin tətbiqi;
7. Aşağı kurs tələbələrinə ardıcıl alqoritmi ifadə edən metodik göstərişin verilməsi və tələbələrin ən böyük müstəqilliyə öyrətmək məqsədilə kursdan-kursa keçərkən izahedici hissənin tədricən azaldılması;

8. Metodik göstərişləri və təlim tapşırıqları nəzəri materiallara müvafiq olan müstəqil iş üçün kompleks dərsliklərin hazırlanması;

9. Fənlərarası xarakterli dərs vəsaitlərinin tərtibi;

10. Ev tapşırıqlarının və laboratoriya işlərinin fərdiləşdirilməsi, həmçinin qrup işi zamanı qrup üzvləri arasında onun dəqiq bölgüsünün aparılması;

11. Tipik məsələlərə məntiqi çalışmaların daxil edilməsi, həm də məsələlərin əlavə məlumatlarla təmin edilməsi;

12. Hər mühazirədən sonra mühazirə dinləyiciləri üçün yoxlayıcı sualların verilməsi;

13. İlkin hazırlıq vaxtı müəllimin köməyi ilə mühazirənin bir hissəsinin tələbələr tərəfindən oxunması;

14. Tələbə-konsultantlardan ən fəallarının və bacarıqlıların statusunun müəyyən edilməsi və həmin tələbələrə hərtərəfli köməyin göstərilməsi;

15. Təlimin kollektiv metodlarının: qrup və cütlərlə iş formalarının tətbiqi (5, s. 313-315).

Tələbələrin müstəqil işlərinin təsirliliyinin artırılması yolları. Ali təhsil müəssisələrinin aparıcı alim pedaqoq və psixoloqları tərəfindən təlim planlarında müstəqil işlərdən istifadəyə geniş yer verilməsi mütəxəssis hazırlığında keyfiyyətin əldə olunmasına imkan və zəmin yaradır.

Bu mənada müəyyən konstruktiv təkliflər irəli sürürük:

- Tələbələri elmi tədqiqat işinə cəlb etməklə fərdi planların və təhsil müəssisələrinin sifarişləri üzrə real layihələrin təşkili;
- Kafedrada fərdi konsultasiyalara, tədris planına və dərs cədvəlinə tələbələrin sərbəst işinin əlavə edilməsi;
- Tələbələrin müstəqil işinin icra edilməsi üçün tədris kompleksinin, təlim-metodik vəsaitlərin proqrama uyğun hazırlanması;
- Kafedralararası müstəqil tapşırıqların inteqrativ sisteminin işlənilməsi;
- Tələbələrin müstəqil işinə nəzarətin reytinqli metodunun tətbiqi;
- Müəllim və tələbələrin qarşılıqlı əməkdaşlıq münasibətləri;
- Qeyri-standart qərarları ehtimal edən müstəqil tapşırıqların hazırlanması;
- Tələbələrin müstəqil işlərini nəzərə alaraq müəllimin fərdi məsləhət yükünün yenidən hesablanması və s. (4, s. 138)

Tələbələrin müstəqil işi olmadan onların idrak fəaliyyətini formalaşdırmaq mümkün deyil. Tələbələrin müstəqil işi onların dərketmə fəaliyyətinin ən mühüm şərti hesab olunmalıdır. Elə buna görə də tələbələrin müstəqil işi tədris prosesinin təşkilinin tərkib hissəsini təşkil edir .

Bir sözlə, müstəqil iş tələbələrin bilikləri fəal qavramaq, anlamaq, bir sıra hallarda yenidən işləmək, dərinləşdirmək, əldə edilənləri genişləndirmək və yeni informasiyalar yaratmaq üçün fəaliyyət prosesidir.

Zənnimizcə, təlim prosesində tələbələrin müstəqil işlərinin tipləri, mərhələləri və işlənmə texnologiyası, eləcə də tələbələrin müstəqil işlərinin təsirliliyinin yolları sistemli şəkildə aparılmalıdır ki, bu da onların yaradıcılıq potensiallarının az bir vaxtda aşkar olunmasına zəmin yaratmış olar.

**Məqalənin aktuallığı.** Müstəqil iş təlim prosesinin ayrılmaz tərkib hissəsidir. Eyni zamanda, tələbələrin yerinə yetirdikləri fərdi işdir. Bu zaman onlar həmin işi müəllimin və ya dərsliyin, təlim proqramlarının quruluşuna uyğun olaraq yerinə yetirirlər. Buna baxmayaraq, təcrübə göstərir ki, tələbələrin müstəqil işlərinin təşkili zamanı bəzi çətinliklər yaranır. Həmin problemlərin öyrənilməsi və aradan qaldırılması baxımından məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə sərbəst işlərin tiplərinin, təşkili mərhələlərinin təsnifatı verilir və tələbələrin müstəqil fəaliyyətinin səviyyələri təhlil edilir, eləcə də həmin işlərin təsirliliyinin artırılması məqsədilə zəruri təkliflər irəli sürülür.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də praktik-psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əliyev B., Əliyeva K, Cabbarov R., Pedaqoji psixologiya, Bakı, 2011.
2. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2000.
3. İsmayılova M.C. Psixologiyanın tədrisi metodikası. Dərs vəsaiti, Bakı, 2012.
4. İsmixanov M.A., Bəxtiyarova R.Ə. Ali məktəb pedaqogikası. Bakı, 2014
5. Бадмаев Б.Ц. Методика преподавания психологии.М., Владос, 1999.
6. Карандашев В.Н. Преподавание психологии: Опыт международного исследования и перспективные проекты сотрудничества // Психологический журнал, 2001, Т. 22, № 2

**М. Гасанова**

## Психологические особенности самостоятельной работы студентов

## Резюме

Психологические особенности самостоятельной работы студентов и их типы последовательно интерпретированы в научной статье. Организация методологии самостоятельной работы студентов было уделено в статье. В научной статье автор систематически исследовала организация принципов самостоятельной работы и его правила.

**M. Hasanova**

## Psychological characteristics of student′s individual works

## Summary

Psychological features of the independent work of the students and their tunes have been commented by plain tiff the scientific article. Methods of forming of the independent work of students have been current in the article. Principles and rules of forming of the independent work of have been students systematical investigated by author in the scientific article.

**Redaksiyaya daxil olub:** 15.01.2019